http://iqtisadiforum.blogspot.com/2020/08/rovsn-agayev-hokumt-vvlki-bohran.html

**10 Avqust 2020**

**Rövşən Ağayev: "Hökumət əvvəlki böhran dövrünün acı təcrübəsini nəzərə alaraq büdcə xərclərində azalmaya getmədi"**



Neftin qiymətinin kəskin enməsi hökuməti büdcəyə yenidən baxmağa məcbur etdi. Gəlir və xərclərdə ümumilikdə ciddi dəyişiklik edilməsə də büdcənin funksional istiqamətləri üzrə ciddi dəyişikliklər edilib.

Büdcədəki dəyişiklikləri zəruri edən amilləri qiymətləndirən "İqtisadi Forum" ekspert qrupunun üzvü, iqtisadçı Rövşən Ağayevin fikrincə, pandemiyanın uzanması digər ölkələrlə müqayisədə təbii resurs ölkələrinin iqtisadiyyatına ikiqat zərər vurur. Onun sözlərinə görə, bir tərəfdən əhalinin sağlamlığının qorunması üçün iqtisadiyyat qapadılır və iqtisadiyyat tənəzzüllə üzləşir, digər tərəfdən məcmu tələbin azalması səbəbindən dünya birjalarında neft kəskin ucuzlaşır. Kəskin ucuzlaşma Azərbaycan kimi iqtisadiyyatı təbii resurslardan daxil olan gəlirlərdən asılı olan ölkələrdə hökumətin qazancını azaldır. R.Ağayev söylədi ki, 2020-ci ilin birinci rübündə neftin orta qiyməti 59 dollar olub, bu ilin 6 ayında isə 38,7 dollar təşkil edib. O belə bir vəziyyətdə hökumətin büdcənin dəyişdirilməsi ilə bağlı qərar qəbul etmək məcburiyyətində qaldığını dedi: "Büdcə ilə bağlı dəyişikliklərin ilk siqnalını Hesablama Palatasının sədri bu ilin aprel ayında mediaya verdiyi açıqlamada vurğulamışdı. O qeyd etmişdi ki, büdcə dəyişiklikləri qaçınılmazdır. Makroiqtisadi nəticələrdə pisləşmə aydın görünür. İlk 6 ayın büdcə gəlirlərində pandemiyanın təsirləri özünü göstərmədi. Büdcədə ümumi mədaxildə 20 faizdən çox artım var və Vergi Xidmətinin xətti ilə daxilolmada 10 faiz ətrafında artım olub.

Hökumət proqnozlaşdırır ki, qarşıdakı 6 ayda büdcənin vergi və gömrük gəlirlərində ciddi azalma olacaq. Buna görə də Dövlət Neft Fondundan transfertlər artırılmağa qərar verilib. Vergi və gömrük gəlirlərindəki azalmanı Neft Fondundan transfertin 8 faizə yaxın (850 milyon manat) artımaqla kompensasiya etmək planlaşdırılır.

Transfertin məbləğinin artması dövlət büdcəsinin gəlirlərində neft sektorunun payının 58 faizə yüksələcək. Neft gəlirlərinin dövlət büdcəsinin payındakı bu nisbətn devalvasiyadan sonrakı dövrdə qəbul edilən büdcələrdə ən yüksək səviyyələrdən biridir".

R.Ağayev söylədi ki, dövlət büdcəsinin vergi gəlirlərində azalma olacaq: "2020-ci ilin təsdiqlənən büdcəsində qeyri-neft sektoru üzrə 10,605 milyon manat vəsait proqnozlaşdırılır. Bunun 4 milyard manatı Dövlət Gömrük Komitəsinin, 5,685 milyard manatı Vergi Xidməti vasitəsilə təmin edilməliydi. Yenidən baxılan büdcədə Gömrük Komitəsinin büdcə öhdəlikləri 170 milyon manat azaldılıb. Qeyri-neft sektoru üzrə vergi gəlirlərində isə 285 milyon manat azalma proqnozlaşdırılır.

İlin əvvəlində Dövlət Vergi Xidmətinin ümumilikdə 7,875 miyard manat vergi toplayacağı təsdiqlənmişdi. Dəqiqləşdirilən büdcədə Vergi Xidmətinin xətti ilə daxilolmaların 685 milyon manat azalacağı proqnozlaşdırılır.

Vergi Xidməti verginin 2,180 milyard manatını neft-qaz sektorundan, 5,685 milyard manat qeyri-neft sektoru üzrə toplamalı idi. Dəyişdirilmiş büdcədə 1,790 milyard manat neft-qaz sektoru, 5,4 milyard manat isə qeyri-neft sektoru üzrə vergi öhdəliyi müəyyənləşdirilib. Neft-qaz sektoru üzrə vergi gəlirlərində 390 milyon manat azalma gözlənilir.

Ümumilikdə 685 milyon manatlıq vergi azalmasının daha çox hissəsi mənfəət vergisi üzrə müşahidə ediləcək. Mənfəət vergisi üzrə mədaxil 388,8 milyon manat azalma ilə ümumi azalmanın 55 fazini təşkil edəcək. Bunun əsas hissəsi neft-qaz sektoru ilə bağlıdır.

Əlavə dəyər vergisində 5,3 faiz, yəni 106,6 milyon manat azalma baş verəcəyi proqnozlaşdırılır. Gəlir vergisində 45 milyon manat azalma gözlənilir".

Ekspert qeyd etdi ki, hökumət əvvəlki böhran dövrünün acı təcrübəsini nəzərə alaraq büdcə xərclərində azalmaya getmədi: "Hökumət pandemiya dövründə iqtisadi fəallığın aşağı düşməsi riskini nəzərə alaraq büdcə xərlcərini azaltmadı. 2020-ci ilin dövlət büdcəsinin xərcləri 26,895 milyard manat proqnozlaşıdırılmışdı. Büdcə dəyişikliyi nəticəsində məcmu xərclər 597,5 milyon manat (2,2%) artırılaraq 27,497 milyard manata çatdırılıb.

Xərclərdə aparılan dəyişikliklərə əsasən, dövlət büdcəsinin 12 funksional xərc bölməsindən 2 istiqamət üzrə xərclər artırılıb, 9 bölmə üzrə xərclər azaldılıb, 1 bölmə üzrə xərclərin həcmi olduğu kimi saxlanıb.

2015 və 2016-cı ildə ölkədə investisiya xərlərində ciddi azalmaya gedildi. Bunun təsiri ilə 2016-cı ildə iqtisadiyyatda ciddi geriləmə baş verdi. Bu təcrübəni nəzərə alaraq 2020-ci ildə baş verən böhrana baxmayaraq investisiya xərclərində azalmaya gedilmədi".

Ekspert hesab edir ki, sərt karantin rejiminin ilin 3-cü rübündə davam etməsi və ölkənin daha geniş ərazisini əhatə etməsi nəticəsində işsizlik və yoxsulluğun miqyası genişlənəcək. O mənfi dinamikanın istehlak tələbini daraldacağını və iqtisadi artımın daha da zəiflədəcəyini proqnozlaşdırır. Onun fikrincə, eyni zamanda, həm kiçik və orta biznes, həm də ev təsərrüfatları sərt karantin rejiminin müddəti uzandıqca, ehtiyatlarını daha çox xərcləməsi də iqtisadi daralma üçün ciddi risk formalaşdırır.

R.Ağayev yaranmış vəziyyəti nəzərə alaraq dövlət büdcəsi ilə bağlı hökumətə tövsiyələrini də verdi: "Vergi orqanlarının hesabatlılığının təkmilləşdirilməsi, vergi daxilolmalarının sahəvi və mülkiyyət strukturuna dair aylıq və rüblük hesabatların

açıqlanması vacibdir. Büdcə xərcləri, xüsusilə investisiya xərclərilə bağlı informasiya açıqlığının təmin edilməsinə ehtiyac var. Hər bir layihə üzrə mənbələr (kredit, büdcə, büdcədənkənar fondlar və s.) göstərilməklə investisiya layihələrinin siyahısı ictimaiyyət üçün əlçatan olmalıdır.

Büdcə proseslərində ictimai iştirakçılıq yüksəldilməlidir. Hazırkı şəraitdə büdcə aparılan dəyişikliklərlə bağlı müzakirələrə peşəkar "beyin mərkəzləri" və vətəndaş cəmiyyəti də cəlb edilməlidir. Büdcədə aparılan dəyişiklərin ilkin layihəsi hazırlanmazdan öncə parlament komitələrinin iştirakı ilə büdcə dinləmələri təşkil edilməlidir.

Pandemiya dövründə yaranan əlavə xərclər, onların funksional və iqtisadi strukturu ilə bağlı aylıq icmal hazırlanmalı, ictimaiyyətə təqdim edilməsinə ehtiyac var. 2022-ci ildən gec olmayaraq dövlət büdcəsinin bütün funksional istiqamətləri əhatə olunmaqla nəticə əsaslı büdcə mexanizminə keçidlə bağlı qərar qəbul edilməsi məqsədəuyğundur. "Büdcə qaydası"na yenidən baxılmasına, onun tətbiqinin dayandırılması şərtlərinin maksimum sərtləşdirilməsinə, qaydanın büdcə xərclərinə deyil, neft gəlirlərinə məhdudiyyətlər əsasında yenidən işlənməsinə ehtiyac var".